MORQAN HAUZEL

# Pulun Psixologiyası

## SƏRVƏT, HƏRİSLİK VƏ XOŞBƏXTLİK HAQQINDA ƏBƏDİ DƏRSLƏR

Tərcüməçi:
Qurban Təbiətoğlu

qanun nəşriyyatı

MORGAN HOUSEL

# The Psychology of Money

## TIMELESS LESSONS ON WEALTH, GREED, AND HAPPINESS

Əlinizdə tutduğunuz kitab həyatın ən vacib mövzularından birini - pul məsələsini daha yaxşı öyrədən hekayələr toplusudur.

Morqan Hauzel düzgün maliyyə qərarları qəbul etmək və sərvət sahibi olmaq üçün insan davranışını anlamağın vacibliyindən danışır. Çünki pullarınızın idarə olunması birbaşa biliyinizdən deyil, məhz ona münasibətinizdən asılıdır. Bəzən çox ağıllı insanlara belə bunları öyrənmək çətin gəlir.

Bu, düşüncə tərzini dəyişməklə maddi rifahını yüksəltməyi qarşısına məqsəd qoyan insanlar üçün dəyərli məsləhətlər verən kitablardandır. Siz maliyyə fırıldaqlarını anlayacaq, lazım gəldiyi təqdirdə izafi xərclərdən yayına biləcəksiniz.

Məni öyrədən valideynlərimə,
mənə yol göstərən Qreçenə,
məni ruhlandıran Maylz və Risə
HƏSR OLUNUR

# Mündəricat

Giriş. Yer üzündəki ən möhtəşəm şou ........................ 10
1. Heç kim dəli deyil ........................ 19
2. Uğur və risk ........................ 35
3. Heç vaxt kifayət deyil ........................ 51
4. Çaşdırıcı artım ........................ 63
5. Zəngin olmaq və ya zəngin qalmaq ........................ 73
6. Şansın varsa, sən qazanırsan ........................ 89
7. Azadlıq ........................ 105
8. Avtomobildəki adamın paradoksu ........................ 117
9. Əsl sərvət gözlə görünməyənlərdir ........................ 123
10. Pul yığın ........................ 131
11. Məntiqli > Rasional ........................ 143
12. Sürpriz! ........................ 155
13. Xəta həddi ........................ 171
14. Dəyişəcəksiniz ........................ 187
15. Pulsuz heç nə yoxdur ........................ 197
16. Sən və mən ........................ 209
17. Pessimizmin cazibəsi ........................ 221
18. Hər şeyə inanacağınız zaman ........................ 237
19. İndi hamısı birlikdə ........................ 253
20. Etiraflar ........................ 263
P.S.: ABŞ-də istehlakçının niyə bu cür düşündüklərinin qısa icmalı ........................ 275
Qeydlər ........................ 298
Təşəkkürlər ........................ 303

*"Dahi o insandır ki, ətrafındakı hər kəs özünü itirəndə belə adi işləri görə bilir".*

Napoleon

*"Dünya heç kimin fərqinə varmadığı aşkar şeylərlə doludur".*

Şerlok Holms

# GİRİŞ
# Yer üzündəki ən möhtəşəm şou

Kollec illərimdə Los-Ancelesdə gözəl bir hoteldə xidmətçi kimi işləmişəm.

Tez-tez qonaq gələnlərdən biri texnologiya sahəsində rəhbər vəzifədə çalışan gənc dahi idi: 20 yaşlarında vayfay yönləndiricilərinin əsas komponentini dizayn edib patentləşdirmiş, bir neçə şirkət qurub satmış və ağlasığmaz uğur qazanmışdı.

Onun pula qarşı elə münasibəti vardı ki, mən onu özünə güvənsizlik və uşaq ağılsızlığının qarışığı kimi təsvir edərdim.

Əlində bir neçə düym qalınlığında yüz dollarlıq əsginas yığını olardı. O bunu lazım oldu-olmadı hər kəsə göstərər, öz var-dövləti ilə açıq-aşkar öyünər, tez-tez sərxoş olub yerli-yersiz danışardı.

Bir gün o həmkarlarımdan birinə bir neçə min dollar pul verib dedi: “Get küçənin sonundakı zərgərlik mağazasından mənə 1000 dollarlıq qızıl sikkə al”.